# KƏRİMOV KAZIMAĞA MÖVSÜM OĞLU



Kazımağa Kərimov 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində doğulmuşdur. Qubadlı rayon orta məktəbini bitirdikdən sonra ’’Avanqard” qəzetində işləmişdir. 1970-ci ildə BDU-nun Jurnalistika fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra təyinatla “Azərbaycan məktəbi” jurnalına göndərilmişdir. Sonralar Goranboy rayon Qızılhacılı kəndində Aqrar Sənaye Birliyində hüquq məsləhətçisi kimi işə qəbul olunmuşdur. 1991-ci ildə birinci Goranboy özünümüdafiə batalyonunun yaradılmasında xüsusi fəallıq göstərir. İkinci Goranboy özünümüdafiə batalyonu təşkil olunanda o, batalyona komandir müavini təyin olunmuş və ömrünün son anına kimi erməni işğalçıları ilə vuruşmuşdur. Kazımağa Kərimov Bəbir Mərdanovla birlikdə Rusiyaya köçmək üzrə olan hərbi hissədən xeyli döyüş sursatı əldə edib taqıma gətirmişdir. Həmçinin, Qubadlıda döyüşçülərin silahlandırılmasında böyük xidmətləri olmuşdur. Qaraçinar, Meşəli, Erkəc, Mənəş və digər kəndlərdə aparılan əməliyyatlarda rəşadətlə vuruşmuşdur. Kazımağanın axırıncı döyüşü Meşəli ərazisində olmuşdur. Onun dəstəsi bu ərazini düşməndən azad etməli idi. Elə bu zaman sıx meşəlikdən ermənilər görünməyə başlayır. Gərgin gedən döyüşdə ermənilər məğlub edilərək, tərkisilah olunur. Lakin bu döyüşdə Kazımağa ayağından ağır yaralanır. Onu Bakıya xəstəxanaya çatdırırlar. Çox qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmur. 15 iyun 1992-ci ildə Bakıda xəstəxanada dünyasını dəyişir. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Evli idi. Bir oğlu yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-cü il tarixli 6 saylı Fərmanı ilə Kərimov Kazımağa Mövsüm oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qızılhacılı kənd mədəniyyət evi onun adını daşıyır. Goranboy şəhərində büstü qoyulmuşdur.